# 4. CƏSARƏTİN TƏNTƏNƏSİ VƏ FACİƏSİ

***Əqidə yolunun üstündə insanları qarşılayan ölümlər qatillər üçün bədnamlıq zirvəsi, şəhidlik üçün şərəf, qeyrət, ölümsüzlükdür. Tarixin dönüş nöqtəsi, ədalətdən qurtulan, cəhalətdən ayrılan bir zaman xalqın zaman kulminasiyasıdır. Tarixi insanlar bu günü qurmaq, gələcəyi aydın görmək üçün öyrənirlər.***

**Əli Rza XƏLƏFLİ**

Dağların əmələ gəlmə prosesini izləyən mütəxəssislər bunun Yerin təkində gedən dəyişmələrdən asılı olduğunu bildirirlər. Maqma yer altında hərəkət edir, qızma elə bir həddə çatır ki, artıq Yer qabığı onu saxlaya bilmir. Qabarmalar, çəkilmələr, vulkanlar məhz bu proseslərlə bağlıdır.

Düşüncə mühitinin müəyyən mənada cəmiyyətin daxilində gedən proseslərdən asılı olduğunu inkar etmirik. **Deməli, Nizamidən üzü bəri böyük fikir zirvələri cəmiyyət daxilində gedən proseslərin nəticəsi olaraq yaranır. Şübhəsiz, bu yöndən yanaşanda Mirzə Cəlil, Sabir zirvələrinin yaranması da düşüncə mühitindəki qabarmalar və çəkilmələrlə bağlıdır.** Vulkanlar, qabarmalar, çəkilmələr dağları yaratdığı kimi, **düşüncə mühitindəki proseslər də Mirzə Cəlil, Sabir zirvələrinin yaranmasında əsas olub. İndi, əlbəttə, bu zirvələrin hər biri yüz ildən çoxdur ki, təhlil müstəvisinə çəkilir. Onların qeyri-adi dərəcədə çevik düşüncə ilə zamanına cavab olan yazıları** qərinələr dəyişdikcə yenidən parıldamağa başlayır və bir daha inanırsan ki, doğuluşundan diri olan söz heç vaxt köhnəlmir, zamanına uyğun yeni mahiyyətdə təzahür edir. Dövrün gətirdiyi problemlərə cavab vermək qüdrətində olur.

Zənnimcə, əsasən qələmini dövrün, zamanın təbiətinə uyğun hadisələr üzərində kökləmiş yazıçı-publisist Qulu Məhərrəmli də elə dövrümüzə aid bir çox müşkül sualların cavabını Mirzə Cəlil ocağında tapdığı üçün növbəti fikir və duyğularını Mirzə Cəlil ünvanı ilə üzə çıxarmağa çalışır. Onun növbəti yazısı *"Mirzə Cəlili niyə həbs etmişdilər? Və ya "Ölülər" aləmindən "Dəli yığıncağı"na düşməyin əbədi faciəsi"* (30.01.2017) adlanır. İlk baxışdan ədəbi mühitimiz üçün maraqlı olacaq, ədəbiyyat tariximizin az qala yüz il qədər bizdən uzaqlaşmış zamanının dumanlı sualına cavab vermək istəyir. Bəli, burada konkret Mirzə Cəlilin həsindən söhbət gedir. Sonra da müəllif yardımçı başlıqla Mirzə Cəlilin öz yaradıcılığına istinadən kəskin təzad yaradır. *"Ölülər"* mühiti ilə *"Dəli yığıncağı"*nı qarşılaşdırır. Burada artıq Mirzə Cəlilin *"Ölülər"* əsərindən söhbət getmir, bolşevik dövrünə qədərki zamanı müəllif *"ölülər aləmi"* adlandırır. Çünki bu dövrdə fanatizm, xurafat, mövhumat ayaq açıb yeriyirdi. Elmdən kənar, nadanlığa əsaslanan mühit düşüncələrə hakim kəsilmişdi, varlıqları işğal etmişdi. Bolşevik inqilabından sonrakı mərhələdə isə insan haqları ayaq altına atılmış, hüquq tapdalanmış, ideologiya müqaviməti qırmaq üçün saysız-hesabsız qətlləri əsas vasitəyə çevirmişdi. Bəli, bu, həqiqətən, faciənə bir dəli yığıncağı idi. Məşhur təbirdən istifadə ilə *"matroslar"* bütün cəmiyyətdə allahlıq edirdi.

Maraqlıdır, belə bir mühitdə Mirzə Cəlilin yeri harada idi? M.Cəlil cəsarətdə olan qələm sahibinə yeni siyasi mühit vuruşmaq imkanı yaratmışdırmı? Bütün bu suallara cavab tapmaq üçün mətnin ayrı-ayrı parçalarını nəzərdən keçirmək lazımdır. Yazının əvvəlində müəllif əsaslandığı faktları yada salır: *"28 apreldə - Azərbaycanın işğalından iki ay sonra Mirzə Cəlil ailəsi ilə gedib Təbrizə sığınmışdı. Şura hökümətindən ağlı bir şey kəsmirdi, bolşeviklərə inanmırdı, hadisələri uzaqdan izləyirdi. Tezliklə geri qayıtmaq fikri də yox idi. Təbrizli dostlarının köməyi ilə "Molla Nəsrəddin"in nəşrini bərpa etmişdi, iki il ərzində ara-sıra çıxan jurnalın nüsxələri Bakıda da yayılırdı.*

***Günlərin birində təzə hökümətin sayılan simalarından olan xalq maarifi komissarı Dadaş Bünyadzadə Təbrizə teleqram göndərir və M.Cəlili dilə tutmağa çalışır ki, qayıt Bakıya və jurnalını burada rahat burax. M.Cəlil də yaxşı tanıdığı bu adama cavab yazır ki, gələ bilmərəm, çünki siz orda adamları haqq-nahaq tutub dama basırsız, xoşunuza gəlməyənləri də güllələyirsiz. Söhbət uzanır, onların arasında yazışma bir müddət davam edir və nəhayət, sovet hakimiyyəti jurnalın sərbəst nəşrinə, təbii ki, həm də M.Cəlilin təhlükəsizliyinə təminat verdikdən sonra böyük ədib 1922-ci ilin payızında Bakıya qayıdır. Elə həmin ilin axırlarından burada "Molla Nəsrəddin"in nəşrinə başlayır. Başında hələ Tiflis və azadlıq havası almış jurnal mətbuat mühitində bir canlanma yaradır".*** Ümumiyyətlə, bu mətnin təhlili üçün xışı dərindən işlətməyə lüzum qalmır. Çünki tarixi faktlar elə məntiqi ardıcıllıqla təqdim olunur ki, hər şey oxucuya aydın olur.

*"Molla Nəsrəddin" eynən çar dövründəki kimi bütün nöqsanları sərt şəkildə qamçılayır. Bir-iki dəfə xəbərdarlıq edirlər, başına ağıl qoymağa çalışırlar, amma xeyri olmur, çünki zamanın əsdirdiyi qorxulu yellərə baxmayaraq məslək sahibi M.Cəlil bir kimsə ilə mənəviyyat alverinə girməmişdi, kimsədən umacağı, kimsə ilə sövdələşməsi yox idi. Yenə də həqiqətə sadiq, yalana qarşı güzəştsiz, yenə də nadanlığa qarşı barışmaz idi. Orası pis idi ki, tez-tez bu barışmazlığın altını çəkməli olurdu. Və günlərin birində bu barışmazlıqdan doğan qürurlu davranış böyük ədibə şura həbsxanasının da yolunu tanıtdı".* Beləliklə, Mirzə Cəlil ideallarının ruhu etibarı ilə büllur şüşə olan təbiətinin yeni siyasi rejimin nizələri ilə çilikləndiyini görür.

Ən ağlasığmaz hadisənin baş verməsi Mirzə Cəlilin həyatı üçün ən dəhşətli mənəvi sarsıntıya çevrilir. Qulu Məhərrəmli də elə bunu çatdırır. Yəni insan ideallarının qorunmadığı mühit əslində insanın ruhunun ayaqlar altına atılmasına xidmət edir. Qulu Məhərrəmli çox maraqlı bir fakta istinad edərək Mirzə Cəlilin qandal mühitindəki cəsarətini üzə çıxarır: *"1923-cü ildə çıxan nömrələrin birində jurnal "Ölkədə savadsızlığa qarşı mübarizə elan olunur" adlı karikatura verir və şəklin aşağısında iri hərflərlə "maarif komissarı Dadaş Bünyadzadənin savadı olmadığına görə bu şüarın altından "Molla Nəsrəddin" özü imza atır" sözlərini yazır. Aləm bir-birinə dəyir, vəzifəli şəxsi belə "hörmətsiz" şəkildə tənqid etdiyinə görə M.Cəlili həbs edirlər. Çox sorğu-suala tuturlar, izahat istəyirlər, amma o, ağzını açıb bir kəlmə də danışmır, "mən yalnız Dadaşın özünə izahat verə bilərəm" deyir. Bir də xatırladır ki, çar höküməti jurnalı bir neçə dəfə bağlasa da, heç vaxt onu zindana salmamışdı".* Necə maraqlı təzaddır. O, *"Molla Nəsrəddin"* gülüşü ilə çar hökümətini sağına, soluna kəsib doğrayır, bütün gücü ilə həqiqət naminə vuruşurdu, ancaq çar rejimi onu həbsxanaya salmağa lüzum görmürdü.

**(Davamı 8-ci səhifədə)**

# VIII. SİYASİ-ƏDƏBİ PORTRETLƏR

## 4. CƏSARƏTİN TƏNTƏNƏSİ VƏ FACİƏSİ

*(Əvvəli 6-cı səhifədə)*

Mirzə Cəlilə artıq aydın olmuşdu, o başa düşmdüşdü ki, deyəsən, sovet rejimi, ümumiyyətlə, insan adına hörmətlə yanaşma anlayışından məhrumdur. İnsan sovet rejimi üçün həşərat qədər belə gücsüz idi.

Mirzə Cəlil bilirdi ki, ən adi məsələlərin üstündə insanları güllələmək, həyatdan məhrum etmək adi bir haldır. Ancaq belə mühitdə də öz əzmini qorumaq gücündə idi. Professor Qulu Məhərrəmlinin publisistikasının bədii fonu Mirzə Cəlilin həbsxana həyatındakı obrazını olduğu kimi təsəvvür etməyə bizə imkan verir. Qulu Məhərrəmlinin qeydlərindən aydın olur ki, bir anda insan ölümünə qol çəkən müstəntiq onun gözlərində vecsiz bir simadır. Hətta təkcə müstəntiq yox, sistemi idarə edənlərin özləri də belə dəyərsiz məxluqlardır. Qulu Məhərrəmli yazır: *"Ertəsi gün onu müstəntiqin otağına gətirirlər, xüsusi telefonla D.Bünyadzadə ilə calaşdırırlar. Komissar ədə ilə ondan niyə belə yazdığını soruşanda M.Cəlil sakit tərzdə "Dadaş, bəyəm yalan yazmışam, axı sən haranı oxumusan, nə vaxt təhsil almısan, nə olsun ki, maarif işinə baxırsan, savadın yoxdur də..." deyir. Sonra komissarın hədələrinə, müstəntiqin əl-qol işarələrinə əhəmiyyət verməyərək dəstəyi kənara qoyur. Heysiz və ümidsiz halda yaxındakı kətili altına çəkib oturur və başını gərilmiş əlləri arasına alıb dərin fikrə gedir. Həmin anda bu böyük şəxsiyyətin ağlından nələrin keçdiyini bir Allah bilirdi... Amma bir şey aydın idi ki, artıq xəyallar bitmiş, ümidlər çilik-çilik olmuş, həqiqət soyuq həbsxana divarları arasında əsir edilmiş, gerçək söz ağır zindan qapılarının vahiməli cırıltısı altında eşidilməz olmuşdu. Bisavadların, vəzifə kürsüsünə dırmaşmış matrosların və nəcabəti bəlli olmayan mutantların idarə etdiyi ölkədə binəva "Molla Nəsrəddin" tənha və köməksiz qalmışdı"*. Dünyanın az-çox işıqlı adamlarının diqqətini özünə çəkmiş "Molla Nəsrəddin"in ruhunu tapdamaq, onu gücsüz etmək, zəlil və şikəst bir vəziyyətə salmaq Mirzə Cəlilin bütün varlığını tar-mar edirdi.

Bütün bunlara baxmayaraq Mirzə Cəlilin bütün Şərq aləmindəki nüfuzu onun cismən məhv edilməsinin qarşısını ala bildi: *"M.Cəlil bu qısamüddətli həbsdən canını qurtarsa da, qorxunc rejimin əsil mahiyyətini, onun nəyə qadir olduğunu, bu sistemdə qazanların necə qaynadığını anlamışdı. Yox, qətiyyən qorxmamışdı, qorxsaydı, bu rejimlə qol-boyun olardı, onu vəsf edər, şəninə təriflər yağdırardı. Amma bütün məşəqqətlərə, maddi sıxıntılara, tənqid, təhqir və təhdidlərə baxmayaraq bu qüdrətli qələm sahibi Şərə boyun əymədi, ona xidmət etmədi, heç bir güzəştə getmədi, bununla da nəsillərin qəlbində yazıçı adına, sözə və özünə mənəvi abidə ucaltmış oldu"*. Mirzə Cəlil 30-cu illərin əvvəlinəcən mənəvi tamlığını qoruyaraq gəlib çatmışdı. Onu sovet rejimi ikiləşdirə bilməmişdi. Ancaq buna baxmayaraq sarsıntılar onu cismən əldən salmışdı. Gözlərinin qabağında mənən ölən "Molla Nəsrəddin"in taleyinə dözə bilmirdi. Qulu Məhərrəmli bu prosesi sanki şahid ifadələri ilə canlandırır: *"Molla Nəsrəddin"in isə bu həbsdən itkiləri çox oldu, tənqidin miqyası və kəsəri azaldı, hədəflər daraldı, yazılar müəyyən ideoloji çalar almağa başladı. Ona görə də mətbuat salnaməçisi, haqqında danışılan bu həbs əhvalatını söyləmiş Qulam Məmmədli yazırdı ki, sovet dövründə çıxan jurnal əvvəlki "Molla Nəsrəddin"ə qətiyyən bənzəmirdi. Səbəb o idi ki, M.Cəlilin adını redaktor kimi yazsalar da, jurnalı tamam başqa adamlar buraxırdı. Mənbələr bu kimi qara işlərdə M.S.Ordubadinin xüsusi fəallığını qeyd edir. Həmin vaxtlarda M.Cəlil şura hökümətinin inanılmış adamı olan Ordubadiyə yazıb ki, "gələn nömrədən başlayaraq, əgər siz o jurnalda "redaktor C.Məmmədquluzadə" yazsanız, mən bilirəm ki, haralara müraciət edəcəyəm"*. Bəli, vəziyyət gəlib bu yerə çatmışdı. Mətnin təlqin etdiyi düşüncə sistemi o qədər canlı və sirayətedicidir ki, müasir cəmiyyətdə gedən bir çox proseslərin öz əlamətlərini də bu yazının sətirləri arasından sezmək bizim üçün çətin olmur. Dəfələrlə *"Kredo"* qəzetində gedən tənqidi yazılara təhdidlər, təzyiqlər yaddaşımızdan silinib getmir. Hətta bir dəfə bilərəkdən *"Kredo"* qəzetini qara siyahıya salmaq cəhdləri də olmuşdu. Bütün bunlar o deməkdir ki, cəmiyyət həqiqəti gözləyir, yazı adına nə varsa, insanlar ruhlarındakı qaranlığı yazı içindən gələn işıqla boğmaq istəyirlər.

Mirzə Cəlil qaranlığın işığı kəsib doğradığı bir mühitə düşmüşdü. *"Ölülər"* mühiti bütün acınacaqlı vəziyyəti ilə *"Dəli yığıncağı"* faciəsindən az qala şükranlı görünürdü. Müəllifin demək istədiyi də elə budur: *"Bəli, vəziyyət ağır idi. Azərbaycan xalqının vicdanı sayılan bir dühaya mənəvi əzab verirdilər. Əlinə qələm alan, dili söz tutan bolşevik məddahları H.Cavid, Ə.Cavadla yanaşı, onu da "dövrün nəbzini tuta bilməməyə" görə tənqid və təhdid edirdilər. Bir vaxtlar "Ölülər" aləmində yaşayıb, onu qəflət yuxusundan ayıltmağa çalışmış böyük yazıçı indi tamamilə yeni və daha qorxulu mühitə - milli yaddaşını itirmiş, zombiləşmiş və hər addımda qorxu yağdıran "Dəli yığıncağı"na düşmüşdü"*. Kəskin ziddiyyətlərin qarşılaşması həmişə cəmiyyətdə ağrı ilə müşayiət olunur. *"Dəli yığıncağı"*nın faciəsi də hələ səhnədə oynanılmaqda idi. Bu siyasi tamaşanın ömrü Stalin tiranlığının sonuna qədər davam etdi. Hətta Mirzə Cəlil sağ qalıb Stalin tiranlığından sonra yaşasaydı, yenə *"Molla Nəsrəddin"*i əvvəlki ruhunda həyata qaytara bilməzdi, çünki zaman təkbəşər ideologiyanın cəngində çırpınırdı.

Qulu Məhərrəmli yazısının sonun maraqlı pritça ilə bitirir: *"Mirzə Cəlilin sovet dövründə çəkilmiş bir neçə fotosu var. Bu fotoların heç birində böyük ədibin üzü gülmür, kədərlidir, dünyaya qəm pəncərəsindən baxdığı aşkar duyulur. Bu kədər, sanki ölmüş ideallara yasdır, peşmançılığın, azad düşüncənin buxovlanmasının, qəlb ağrısı və ruhi sıxıntının ifadəsidir. Mirzə Cəlil sovet dövründə sözlə yaza bilmədiyi acı mətləbləri, sanki bu kədərlə ifadə edir: həqiqətin, azad düşüncənin boğulduğu, yalanın tüğyan etdiyi, insan iradəsinin zorlandığı, ləyaqətin itirildiyi və matros düşüncəli fərdlərin idarə etdiyi bir cəmiyyətdə insanın üzü heç vaxt gülə bilməz..."*. Bu əsərdə Qulu Məhərrəmlinin yaratdığı obrazlar kifayət qədər oxucunun yaddaşında yaşamaq gücündədir. Ancaq bir obraz xüsusilə tarixin ironiyası kimi ayrı-ayrı inqilabi dönəmlərdə həmişə yaddaşda görünəcək. Bu matros obrazıdır. Bu o obrazdır ki, hətta sovet hakimiyyəti öz dövrünü bitirib getdi, yeni müstəqillik zamanında inqilabi ruhun təsiri altında yenidən parlayıb üzə çıxdı. Komandir oldu, icra başçısı oldu, bir sözlə, bank müdirliyi ilə öz təşəxxüsündə görünməyə başladı.

**Qulu Məhərrəmlinin ədəbi-publisistik yazıları nə qədər tarixdən danışır danışsın, müasirlik ruhu ilə hər vaxt fərqlənir. Hətta bu yazıda da biz günümüzün bir çox reallıqlarını gördüyümüzü dana bilmərik.**

***18.10.2021***